## GS1 Azerbaijan-nın GEPIR elektron xidmətləri

GS1 sisteminin GEPIR (Global Electronic Party Information Register) adlanan qlobal registri - beynəlxalq GS1 sisteminin üzvləri olan Milli təşkilatların məlumat bazasını birləşdirən informasiya servisidi.




Hal-hazırda GEPİR məlumat bazasında 100-dən artıq Milli GS1 təşkilatının üzvü olan bir milyondan artıq şirkət barədə məlumat var. GEPİR İnternet vasitəsilə Milli GS1 təşkilatlarının üzvü olan müəssisələrin elektron kataloqlarına açıq çıxışı təmin edir.

1999-cu ildə GEPİR-in ilk versiyası əmtəə bağlamasının üzərindəki ştrixkodu ilə yalnız istehsalçını və ya təchizatçını müəyyən etməyə imkan verirdi.




2001-ci ildə GEPİR-in ikinci versiyası çıxdı. İkinci versiya yuxanda qeyd olunan funksiyalardan başqa adı, poçt indeksi və müəssisənin yerləşdiyi şəhər üzrə müəssisələrin axtarışını həyata keçirməyə imkan verir. 2004-cü ildə GEPİR-in 3-cü versiyası hazırlandı. Bu versiyanın istifadəçiləri əmtəə ştrixkoduna əsasən nəinki məhsulun istehsalçısı barədə, həmçinin də bilavasitə əmtəə (adı, xarakteristikası, bağlamanın növü) barədə məlumatı əldə edə biləcəklər.